



## Ölkəmizi tanıyaq











# Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayır









"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının iştirakçısı olan Gəncə şəhərinin, Ağstafa, Samux, Kəlbəcər, Daşkəsən və Bakının Nəsimi, Yasamal, Binəqədi rayonlarının məktəbliləri Masallı və Astaraya səfər ediblər. Masallıda tur-aksiya iştirakçılarını rayon icra hakimiyyətinin məsul işçiləri, müəllimlər və ictimaiyyət nümayəndələri qarşılayıblar.

Masallı şəhərindəki Heydər Əliyev Parkında məktəblilər qarşısında çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Aybəniz Qafarova "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunmuş tur-aksiyaların əhəmiyyətindən danışıb, səyahət edən məktəblilərə xoş arzularını bildirib.

Məktəblilər Heydər Əliyev Parkında ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

Maarifləndirici aksiyanın iştirakçıları parkın konsert meydançasında mərkəzin məktəbli oğlanlardan ibarət rəqs qrupu və "Halay" folklor kollektivinin çıxışlarını böyük maraqla izləyiblər. Sonra məktəblilər Uşaq-İncəsənət Məktəbinə gəliblər. Məlumat verilib ki, Uşaq-İncəsənət Məktəbi bu il sentyabrın 3-də Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Şagirdlər bu il sentyabrın 3-də istifadəyə verilmiş Tarix-Diyarşünaslıq muzeyi ilə də tanış olublar. Muzeyin direktoru Əntiqə Tağıyeva bildirib ki, Prezident İlham Əliyev Masallıya səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib. Məlumat verilib ki, Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1950-ci ildə yaradılıb və şəhər mərkəzindən 16 kilometr məsafədə yerləşən keçmiş məktəb binasında fəaliyyət göstərirdi.

Sonra məktəblilər "ASAN həyat" kompleksinə gələrək buradakı İntellektual Mərkəzdə keçirilən Masallı məktəblilərinin "Breyn-Rinq" yarışmasını izləyiblər. Məktəblilər, həmçinin Masallı Olimpiya İdman Kompleksi, Bayraq meydanı və Azərbaycan Dövlət Rəmzləri Muzeyi ilə də yaxından tanış olublar.

Tur-aksiya iştirakçıları Masallı rayonu ilə tanışlıqdan sonra Astara rayonuna gəliblər.

Onları burada Astara Rayon İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər, gənclər və ictimaiyyət nümayəndələri qarşılayıblar.

Məktəblilər Heydər Əliyev Muzeyində ümummilli liderin həyat və fəaliyyətini, böyük rəhbərin Astara rayonuna səfərlərini əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

Sonra tur-aksiya iştirakçıları Astara şəhərində, Xəzər dənizi sahilində salınmış park-bulvar kompleksinə səfər ediblər. Burada Astaranın qədim tarixi, mədəniyyəti, adət-ənənələri, turizm potensialı, əhalinin məşğulluğu və sosial-iqtisadi inkişafı barədə məktəblilərə məlumat verilib. Qeyd olunub ki, zəngin təbiətə və qədim tarixə malik Astarada el sənətkarlığı, adət-ənənələrimiz və folklorumuz qorunub saxlanılır.

Park-bulvar kompleksi ilə tanışlıqdan sonra tur-aksiya iştirakçıları rayonun Ərçivan kəndindəki "Yanar bulaq"da suyun alovlanmasını böyük maraqla izləyiblər.

Məktəblillər "Astaraçay" MMC-nin çay fabrikində emal prosesi ilə tanış olub, buradakı "Çay muzeyi"ndə nümayiş etdirilən eksponatlara baxıblar.

Tur-aksiya iştirakçıları şəhərin mərkəzində Bayraq meydanında və Gənclər evində də olublar.

Masallı və Astara rayonları ilə tanışlıqdan sonra məktəblilər Lənkəran rayonuna qayıdıblar.

* * *

Tur-aksiyanın Qazax, Şəmkir və Gədəbəy rayonlarından olan iştirakçıları Lənkəran rayonuna ekskursiya ediblər. Məktəblilər Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində, Gənclər Mərkəzində, Tarix-Diyarşünaslıq Muzeyində, "Qoşa qala qapıları" meydanında, "Mayak" binasında, Hirkan Milli Parkında, Bayraq meydanında, çay plantasiyalarında, sitrus bağlarında, general Həzi Aslanovun ev-muzeyində olublar.

Tur-aksiya iştirakçıları IDEA İctimai Birliyinin təşəbbüsü ilə "Həramiz bir ağac əkək" devizi ilə keçirilən aksiyaya qoşularaq Lənkəranın Sütəmurdov kəndinə gedən yolda 200-ə yaxın ağac əkiblər.

* * *

Tur-aksiyanın Sumqayıt, Qaradağ, Xəzər, Pirallahı, Qubadlı, Masallı, Lənkəran, Astara, Lerik və Yardımlıdan olan iştirakçıları - IX-XI sinif şagirdləri, eləcə də onları müşayiət edən qrup rəhbərləri və müəllimlər Gəncə şəhərinə gəliblər. Tur-aksiya iştirakçılarının Gəncə şəhəri ilə tanışlığı Heydər Əliyev Park Kompleksi ilə başlayıb.

Bildirilib ki, tur-aksiya çərçivəsində şagirdlər bir-birindən gözəl məkanlarda olacaq, ölkəmizin ikinci böyük şəhəri Gəncənin zəngin və çoxəsrlik tarixi, mədəniyyəti haqqında dolğun məlumat əldə edəcəklər. Həmçinin qədim Gəncənin son illərdə keçdiyi sürətli inkişaf yolu haqqında geniş məlumat toplayacaqlar.

Sonra şagirdlərə tur-aksiya çərçivəsində gəzəcəkləri məkanlardan bəhs edən Gəncənin bələdçi kitabları paylanılıb. Məktəblilər ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini hörmət və ehtiramla anıblar.

Aksiya iştirakçıları Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və siyasi fəaliyyətinin ayrı-ayrı məqamlarını, xüsusilə Gəncə şəhərinə tarixi səfərlərini əks etdirən foto və sənədlərlə tanış olublar.

Məktəblilərin Gəncə şəhəri ilə tanışlığı noyabrın 13-də davam edəcək.

* * *

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Gəncə-Göygöl-Şəmkir marşrutu üzrə ekskursiyaya çıxan Sumqayıt, Qaradağ, Xəzər, Pirallahı, Qubadlı, Masallı, Lənkəran, Astara, Lerik və Yardımlıdan olan məktəblilər Göygöl və Şəmkir rayonları ilə tanış olublar. Əvvəlcə tur-aksiya iştirakçıları Göygöl rayonuna gəliblər.

Şəhərlə tanışlığa tur-aksiya iştirakçıları Heydər Əliyev Mərkəzindən başlayıblar. Əvvəlcə məktəblilər burada ümummilli liderin həyatını, siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən foto və sənədlərə baxıb, mərkəzin fəaliyyəti ilə tanış olublar. Şagirdlərə bildirilib ki, muzeydə gənclər üçün xalçaçılıq və bədii biçmə-tikmə evləri, həmçinin kinozal fəaliyyət göstərir.

Daha sonra Göygöl Rayon Tarix-Diyarşünaslıq Muzeyinə gələn məktəblilərə məlumat verilib ki, vaxtilə alman koloniyaçıları tərəfindən tikilən kilsə hazırda muzey binası kimi fəaliyyət göstərir. Burada nümayiş olunan tarixi eksponatlar, xüsusilə vaxtilə almanlar tərəfindən istifadə edilən məişət əşyaları, geyim nümunələri və tarixi fotolar şagirdlərdə böyük maraq yaradıb.

Azərbaycan Dövlətinin Rəmzləri Muzeyi ilə tanışlıq da tur-aksiya iştirakçıları üçün yaddaqalan olub. Məktəblilər muzeydə Azərbaycanın dövlətçilik tarixinin ayrı-ayrı dövrlərini əks etdirən eksponatlara baxıblar. Məlumat verilib ki, muzeydə Azərbaycanın tarixi torpaqlarında mövcud olmuş ayrı-ayrı dövlətlərin xəritələri və bayraqları, o cümlədən müxtəlif illərdə qəbul olunmuş konstitusiyalar nümayiş etdirilir.

İştirakçıların Göygöl rayonu ilə tanışlığı çərçivəsinə səfər etdikləri sonuncu məkan füsunkar təbiət möcüzəsi - Göy göl olub. Azərbaycan təbiətinin incisi ilə tanışlıq şagirdlərə xoş təsir bağışlayıb.

Məktəblilərin rayonla tanışlığı orta əsr Şəmkir qalasından başlayıb. Qalanın qalıqları ilə tanış olan şagirdlərə məlumat verilib ki, böyük İpək Yolu üzərində yerləşən bu qədim şəhər AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən aşkarlanıb.

Sonra Şəmkir şəhərinin mərkəzinə gələn məktəbliləri Heydər Əliyev Mərkəzinin qarşısında rayon rəhbərliyi qarşılayıb. Şagirdlər Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini əks etdirən fotoşəkillərə, ümummilli liderə həsr olunan kitablara baxıblar. Məlumat verilib ki, mərkəzdə ümummilli lider Heydər Əliyevin müxtəlif vəzifələrdə olduğu dövrlərdə işlədiyi kabinetlərin və iş otaqlarının bənzərləri yaradılıb. Bayraq meydanında tarixən Azərbaycanda mövcud olan dövlətlərin bayraqlarının və nişanlarının əks olunduğu guşələr də tur-aksiya iştirakçılarında böyük maraq yaradıb.

Məktəblilər Şəmkirdə vaxtilə alman koloniyaçıları tərəfindən inşa olunan lüteran kilsəsi ilə də tanış olublar. Burada şagirdlərə Şəmkirin əsasını qoyan alman koloniyaçıları haqqında geniş məlumat verilib.

Sonda tur-aksiya iştirakçıları IDEA İctimai Birliyinin təşəbbüsü ilə "Hərəmiz bir ağac əkək" devizi ilə keçirilən aksiyaya qoşularaq Şəmkir şəhər parkında 500-ə yaxın şam ağacı əkiblər.

* * *

Həmin gün tur-aksiyanın Qazax, Şəmkir və Gədəbəy rayonlarından olan iştirakçıları Astara və Masallı rayonuna səyahət ediblər. Məktəblilər Astara rayonunda Heydər Əliyev Mərkəzində, Gənclər evində, Xəzər dənizi sahilində 8 hektar ərazidə salınmış park-bulvar kompleksində, "Yanar bulaq"da və "Astaraçay" MMC-nin çay fabrikində, Masallı rayonunda Heydər Əliyev Mərkəzində, Bayraq meydanında, Tarix-Diyarşünaslıq Muzeyində, Uşaq-İncəsənət Məktəbində, Dövlət Rəmzləri Muzeyində, "ASAN həyat" kompleksində olublar.

Cənub bölgəsinə səyahəti həmişə xatırlayacaqlarını bildirən məktəblilər tur-aksiyanın onlarda zəngin təəssürat yaratdığını diqqətə çatdırıblar.

* * *

Qəbələ-Şəki-Zaqatala-Qəbələ marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Saatlı, Sabirabad və Zərdab rayonlarından olan məktəblilər Şəki və Zaqatala rayonlarına ekskursiya etdikdən sonra Azərbaycanın dilbər guşələrindən olan Qəbələyə gəliblər.

Şagirdlərə Qəbələ şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında məlumat verilib ki, bu gün respublikamızda əldə edilən sosial-iqtisadi inkişafın bariz nümunəsini Qəbələnin timsalında aydın görmək olar. Rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm infrastrukturları rayonun iqtisadi inkişaf dinamikasının artmasında müstəsna rol oynayır.

Qəbələ-Şəki-Zaqatala-Qəbələ marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən 3 qrupun üzvləri əvvəlcə Heydər Əliyev Mərkəzini ziyarət edib, ulu öndərin həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillər və sənədlərlə tanış olublar. Şagirdlər muzeyin qarşısında kollektiv xatirə şəkli çəkdiriblər.

120 nəfər məktəblinin Qəbələ ilə tanışlığı zamanı növbəti ünvan "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi olub. Bölgənin ən çox turist qəbul edən bu obyekti ilə tanışlıq zamanı şagirdlərə məlumat verilib ki, kompleksin 4 kanat xəttinin hamısı və 10 xizək yolundan 8-də tikinti işləri başa çatdırılıb, turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" hoteli açılıb. Bütün dağ-xizək trassası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib. Gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb.

Şagirdlər kanat yolu ilə uca dağların zirvəsinə qalxaraq Qəbələ şəhərini, ətrafdakı çayları, meşələri seyr edib, xatirə şəkli çəkdiriblər.

Heydər Əliyev adına Konqres Mərkəzi ilə tanış olan şagirdlərə məlumat verilib ki, 1200 yerlik mərkəz üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə zallar, 350 yerlik restoran və inzibati otaqlar yerləşir. Çoxfunksiyalı 1200 yerlik konfrans zalı isə ikinci mərtəbədədir. Konfrans zalı qısa müddətə kresloların aşağı enməsi ilə konsert, iclas üçün müstəvi halına keçə bilir.

Sonra şagirdlər Tarix-Diyarşünaslıq Muzeyində 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər. Bildirilib ki, muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixini əks etdirən 12 mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə olunur.

"Beltmann" piano fabrikində məktəblilərin diqqətinə çatdırılıb ki, müəssisədə dünyada məşhur olan "Beltmann" markalı pianolar istehsal edilir. Fabrik ildə 1200-1500 piano istehsal etmək gücünə malikdir.

Daha sonra Nic qəsəbəsinə səfər edən şagirdlər buradakı "Cotari" Alban-Udi kilsəsinə böyük maraqla baxıblar. Məlumat verilib ki, kilsə tarixi baxımdan ən qədim və əhəmiyyətli abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir. Qəsəbədə 3 kilsə və iki məscid var. Altı min əhalisi olan qəsəbədə 3700 udin yaşayır. Ümumilikdə isə ölkəmizdə 4000 udin yaşayır ki, onların da 300-ü Oğuz və Bakıda qeydiyyatdadır. Dünyada yaşayan udinlərin sayı isə 10 minə yaxındır. Nic qəsəbəsində udinlər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Qəsəbədəki məktəblərin ibtidai siniflərində udin dili tədris olunur.

Məktəblilər Qəbələ konserv zavodunda istehsal prosesi ilə tanış olublar. Həmçinin şagirdlər Çuxur Qəbələ kəndində qədim Qəbələ şəhərinin xarabalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri ilə də tanış olublar. Qəbələyə təşkil edilən tur-aksiya zamanı şagirdlərin istirahəti ilə yanaşı, onların maariflənməsinə də böyük önəm verilib.

Şagirdlər Qəbələyə səfərlərin sonunda beşulduzlu "Qafqaz Riverside", "Qafqaz Resort", "Qafqaz Yeddi Gözəl", "Qafqaz Karvansaray" hotelləri, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi, rayonda yaradılan müasir turizm infrastrukturu, bölgənin füsunkar təbiəti ilə də tanış olublar.

* * *

Doqquz rayonun məktəblilərindən ibarət 400-ə yaxın şagirdin "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində Quba və Qusar rayonlarının görməli yerləri ilə tanışlığı davam edib. Ağcabədi, Naftalan, Xocavənd və Laçın rayonlarından olan məktəblilərin Qusara səfəri şəhərin girəcəyində, ən yüksək yerdə inşa olunan Dövlət Bayrağı meydanından başlayıb. Dəniz səviyyəsindən 689 metr yüksəklikdə yerləşən meydanda 65 metr hündürlüyündə dirəkdə Azərbaycan bayrağı dalğalanır.

Məktəblilər yüksəklikdən Qusar şəhərinin panoramına tamaşa edib, xatirə şəkilləri çəkdiriblər.

Sonra tur-aksiya iştirakçıları "Şahdağ" Turizm Mərkəzində olublar. Onlara turizm kompleksində yaradılan şərait, buradakı istirahət və əyləncə növləri haqqında ətraflı məlumat verilib.

Şagirdlər Qusar şəhərindəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə böyük maraqla baxıblar. Onlara ümummilli lider Heydər Əliyevin Azərbaycanın dinamik inkişafı, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi naminə gördüyü əvəzsiz işlər haqqında geniş məlumat verilib.

Məktəblilər Qusar Tarix-Diyarşünaslıq Muzeyi və rəsm qalereyası ilə də yaxından tanış olublar.

Ağdam, Beyləqan, Xocalı, Bərdə və Goranboy rayonlarından olan məktəblilər isə qədim Quba rayonunun gəzməli, görməli yerləri ilə tanış olublar.

Ekskursiya Quba "Soyqırımı Memorial Kompleksi"ni və ərazidəki kütləvi məzarlığı ziyarətlə başlayıb. Ziyarət zamanı tur-aksiya iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Məktəblilər şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini də izləyiblər. Burada onlara Quba xalçaçılıq məktəbi haqqında ətraflı məlumat verilib.

Xalçaçılıq müəssisəsindən sonra tur-aksiya iştirakçıları dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbəyə gəliblər. Şagirdlər qəsəbədə salınan Heydər Əliyev parkını gəzib, eləcə də dağ yəhudilərinin ibadət etdikləri sinaqoqla yaxından tanış olublar.

Sonra məktəblilər Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə ekskursiya ediblər. Tur-aksiya iştirakçıları həmçinin "Rixos Quba Azerbaijan" hotel kompleksi və burada yerləşən Azərbaycan Milli Qolf Klubu ilə də yaxından tanış olublar.

* * *

Qəbələ-Şəki-Zaqatala marşrutu ilə hərəkət edən Saatlı, Sabirabad və Zərdab məktəblilərindən ibarət qruplar noyabrın 13-də səhər saatlarında qədim Şəki diyarına gəliblər. Tur-aksiyanın iştirakçıları Heydər Əliyev Mərkəzində şəhər icra hakimiyyətinin rəsmiləri tərəfindən mehribanlıqla qarşılanıblar. Diqqətə çatdırılıb ki, Şəki Azərbaycanın ən qədim yaşayış və mədəniyyət məskənlərindən biridir. 2700 ildən çox yaşı olan bu qədim diyar, həm də dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri ilə məşhurdur. Şəkidə dövlət qeydiyyatına götürülən 84 tarix və mədəniyyət abidəsi var. Şəki eyni zamanda festivallar şəhəri kimi tanınır. Hər il bu şəhərdə beynəlxalq səviyyəli bir neçə festival keçirilir.

Səfər proqramına uyğun olaraq məktəblilər sonra şəhərin qədim tarixi hissəsinə - "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğuna gəliblər. Məlumat verilib ki, qoruq Şəkiyə gələn yerli və xarici turistlərin ən çox üz tutduqları tarixi məkanlardan biridir.

Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayı ilə tanışlıq tur-aksiya iştirakçılarının böyük marağına səbəb olub. Məktəblilərin diqqətinə çatdırılıb ki, Şəki qədimdən sənətin və sənətkarlığın inkişaf etdiyi ərazilərdən biri olub. Burada memarlıq, tətbiqi sənət, şəbəkə, ağac üzərində oyma, dulusçuluq və digər sənət növləri yüksək səviyyədə inkişaf edib. Şəki sənətkarlarının gərgin əməyi sayəsində bu qədim şəhərdə çox zəngin tarixi-mədəni irs yaranıb.

Qədim və müasir Şəki ilə tanışlıq tur-aksiyanın iştirakçılarında zəngin təəssürat yaradıb.

Səfər proqramına uyğun olaraq tur-aksiyanın iştirakçıları sonra Zaqatala rayonuna yola düşüblər.

* * *

Tur-aksiya çərçivəsində Qəbələ-Şəki-Zaqatala marşrutu ilə hərəkət edən Biləsuvar, Cəbrayıl, Hacıqabul, Kürdəmir və Ucar rayonlarının məktəblilərindən ibarət qruplar qədim Şəkinin tarixi məkanları ilə tanış olublar. İştirakçıları Heydər Əliyev Mərkəzində şəhər icra hakimiyyətinin nümayəndələri mehribanlıqla qarşılayıblar. Məktəblilərə Şəkinin tarixi, mədəniyyəti, turizm potensialı barədə qısa məlumat verilib. Bildirilib ki, 2700 ildən çox yaşı olan bu qədim diyar həm də dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri ilə məşhurdur. Füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, inkişaf etmiş sənətkarlığı, həmçinin zəngin irsinin qorunması nəticəsində Şəki bu gün Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən birinə çevrilib.

Hər il bu şəhərdə beynəlxalq səviyyəli tədbirlər, festivallar keçirilir. Məlumat verilib ki, TÜRKSOY tərəfindən Şəki şəhəri həm də 2016-cı il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunub.

Tur-aksiya iştirakçıları şəhərin qədim tarixi hissəsinə - "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisinə gəliblər. Məktəblilər ilk dəfə gördükləri sarayın gözəlliyinə heyran qaldıqlarını bildirib, abidənin önündə xatirə şəkilləri çəkdiriblər.

Sonra tur-aksiya iştirakçıları "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisini gəziblər. Məktəblilər həmçinin qoruğun ərazisində yerləşən V-VI əsrlərə aid memarlıq abidəsi Dairəvi Məbəd və Xalq Tətbiqi Sənəti Muzeyində də olub, sənətkarlıq emalatxanalarına baş çəkiblər.

İnşa tarixi XVIII əsrin sonuna aid edilən "Yuxarı Karvansaray" mehmanxana kompleksi ilə tanışlıq zamanı məktəblilərin diqqətinə çatdırılıb ki, Şərq memarlığı üslubunda tikilən bu kompleks üç yüzədək otaq və zirzəmidən ibarətdir. XVIII-XIX əsrlərdə Yaxın və Orta Şərq ölkələrindən gələn tacirlər bu karvansarayda qalır, ticarətlə məşğul olurdular.

Şəkinin tarixi məkanları ilə tanışlıqdan sonra tur-aksiya iştirakçıları Zaqatala rayonuna yola düşüblər.

* * *

Respublikamızın şimal-qərb bölgəsinə səyahət edən Biləsuvar, Cəbrayıl, Hacıqabul, Kürdəmir və Ucar rayonlarının məktəbliləri Zaqatala rayonunun tarixi məkanları ilə tanış olub, şəhərin görməli yerlərini gəziblər. Tur-aksiya iştirakçılarını Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında rayonun rəhbər işçiləri səmimiyyətlə qarşılayıblar. Məktəblilərə rayonun tarixi, mədəniyyəti, coğrafi mövqeyi, iqtisadiyyatı, turizm potensialı barədə qısa məlumat verilib. Sonra məktəblilər mərkəzlə yaxından tanış olublar.

Zaqatala Tarix-Mədəniyyət Qoruğu ilə tanışlıq da məktəblilərin böyük marağına səbəb olub. Tur-aksiya iştirakçıları sonra "Qaladüzü pilləkənləri"ndən düşərək Zaqatala şəhərinin tarixi hissəsinə - Dədə Qorqud meydanına gəliblər. Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, 1967-ci ildə yaradılan muzeydə 16 minə yaxın eksponat nümayiş etdirilir.

Tur-aksiya iştirakçıları "Qızılgüllər diyarı" Zaqataladan xoş təəssüratlarla ayrılıblar.

* * *

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Saatlı, Sabirabad və Zərdab məktəbliləri "Qızılgüllər diyarı" kimi tanınan Zaqatala rayonuna gəliblər. Tur-aksiyanın iştirakçıları Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında rayonun rəhbər işçiləri tərəfindən mehribanlıqla qarşılanıblar.

Rayon icra hakimiyyəti başçısının müavini Vəfa Süleymanova məktəblilərə Zaqatalanın tarixi, coğrafi mövqeyi, mədəniyyəti və turizm potensialı barədə məlumat verib.

Sonra məktəblilər Heydər Əliyev Mərkəzi ilə yaxından tanış olublar. Məlumat verilib ki, 2008-ci ildən fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinin yeni binası 2015-ci ilin noyabrında istifadəyə verilib. Binanın açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib. Ümumi sahəsi 2765 kvadratmetr olan ikimərtəbəli binada müxtəlif təyinatlı bölmələr fəaliyyət göstərir.

Tur-aksiya iştirakçıları qalanın ərazisini gəzib, xatirə şəkilləri çəkdiriblər.

Sonra məktəblilər ümummilli lider Heydər Əliyevin adını daşıyan Mədəniyyət və İstirahət Parkını ziyarət ediblər. Diqqətə çatdırılıb ki, 1947-ci ildə salınan parkın ərazisi 13 hektardır. Burada 27 ağac növü var. Son illər aparılan yenidənqurma işlərindən sonra park müasir görkəm alıb. Ulu öndərin möhtəşəm abidəsinin ucaldıldığı bu park rayon əhalisinin, eləcə də qonaqların ən sevimli istirahət yeridir. Məktəblilər məşhur "Qaladüzü pilləkənləri"ndən düşərək Zaqatala şəhərinin tarixi hissəsinə - Dədə Qorqud meydanına gəliblər. Tur-aksiya iştirakçıları sonra Zaqatala Tarix-Diyarşünaslıq Muzeyinə baş çəkiblər. Məlumat verilib ki, 1967-ci ildə yaradılan bu muzeydə 16 minə yaxın eksponat qorunub saxlanılır və nümayiş etdirilir.

Zaqatalaya səfərləri çərçivəsində tur-aksiya iştirakçıları fındıq emalı müəssisəsində də olublar. Məktəblilərin diqqətinə çatdırılıb ki, Azərbaycanda fındıq istehsalının böyük bir hissəsi Zaqatala rayonunun payına düşür.

Tur-aksiyanın iştirakçıları Zaqataladan zəngin təəssüratlarla ayrılıblar.

**AZƏRTAC**